*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:18.09.2024*
*Kabul tarihi |Accepted:29.11.2024*
*Yayın tarihi |Published:25.12.2024*

**Solmaz Sadıqova**

*https://orcid.org/0000-0003-4780-0163*
*Associate professor, Doctor of philosophy in history, Baku State University document management department, Azerbaijan, solmaz_bdu@mail.ru*

**İradə Bayramova**

*https://orcid.org/0000-0001-7007-3318*
*Doctor of philosophy in history, Baku State University document management department, Azerbaijan, irade8@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Sadıqova, S. & Bayramova, İ. (2024). Azərbaycanda İnformasiya və Sənəd Menecmenti İstiqaməti Üzrə Elmi Tədqiqatların Müasir Meyilləri (Beynəlxalq Elmmetrik Bazalar Əsasında). *Akademik Tarih ve Düşünce Dergisi, 11* (6), 4643-4655.

# Azərbaycanda İnformasiya və Sənəd Menecmenti İstiqaməti Üzrə Elmi Tədqiqatların Müasir Meyilləri (Beynəlxalq Elmmetrik Bazalar Əsasında)

***Xülasə***

*Bildiyimiz kimi müasir dövrdə müxtəlif elm sahələrinə dair fundamental məzmuna malik əsərlərin yazılaraq dünya arenasına çıxmasında mühüm rolu dünya ölkələrində tanınan və beynəlxalq bazalara daxil olan beynəlxalq səviyyəli indeksləşdirilmiş jurnallar təşkil edir. İnformasiya və sənəd menecmenti sahəsinə dair məqalələrin ərsəyə gətirilirək bu kimi jurnallarda dərc edilməsi ixtisasın dünya səviyyəsində tanıdılmasında və xarici tədqiqatçılar tərəfindən araşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Kitabxana-biblioqrafiya sahəsində sənəd axınının bibliometrik təhlili, onların sistemli şəkildə müqayisə edilməsi, gələcəkdə bu sahə üzrə mövcud olan problemlərin ortaya qoyulması və onların optimal həll yollarının göstərilməsi tədqiqatçı alim, dosent Nadir İsmayılov tərəfindən araşdırılmaqdadır. Məqalədə tədqiq olunan kitabxana və biblioqrafiya*

BY NC
Creative Commons Licence

*sahəsində beynəlxalq səviyyəli elmi əsərlərin öyrənilməsi aşağıdakı sahələrdə elmi tədqiqatın obyektinə çevrilir:bu sahəyə aid aktual tematik problemlərin siyahısının tərtib edilməsi; kitabxanaşünaslığın inkişafı ilə birbaşa əlaqəli olan müəlliflərin və kollektiv müəlliflərin müəyyənləşdirilməsi; kitabxanaşünaslıq elmi istiqamətində sənəd axının inkişaf sürətinin qiymətləndirilməsi; sənəd menecmenti üzrə müəyyən bir problemin inkişafı ilə məşğul olan ayrı-ayrı alimlərin, elmi təşkilatların və müəssisələrin fərdi elmi fəaliyyətinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsi; konkret mütəxəssislərin, tədqiqat qruplarının və təşkilatların elmi problemin həllində rolunun qiymətləndirilməsi; tədqiq olunan sahənin inkişaf tendensiyalarının proqnozlaşdırılması söylenebilir. Elə bu konteksdə də məqalənin yazılması əsas meyar olaraq götürülmüş və özünün aktuallığı ilə xüsusi əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *Kitabxana, biblioqrafiya, sənəd axını, sənəd menecmenti, informasiya tələbatı, beynəlxalq indeksləşdirmə*

# Modern Trends of Scientific Research in Information and Document Management in Azerbaijan (Based on International Elmmetric Bases)

***Abstract***

*As we know, in the modern era, an important role in the production and presentation of works with basic content in various fields of science to the world arena falls to internationally indexed journals that are recognised and published in the world countries. It is included in international databases. Creating articles in the field of information and document management and publishing them in such journals is of great importance in terms of promoting the expertise worldwide and being researched by foreign researchers. Bibliometric analysis of document flow in the field of library-bibliography, their systematic comparison, the emergence of problems that may arise in the future in this field and the indication of their optimal solutions are being investigated by research scientist, associate professor Nadir Ismayilov. The study of scientific works of the international level in the field of library and bibliography, analysed in the article, becomes the subject of scientific research in the following areas: compilation of the list of current thematic problems related to this area; identification of authors and collective authors directly related to the development of librarianship; assessment of the pace of development of document flow in the scientific direction of librarianship; determination of the level of development of individual scientific activity of individual scientists, scientific organisations and enterprises engaged in the development of a specific document management problem; assessment of the role of specific specialists, research groups and organisations in solving a scientific problem; forecasting the development trends of the studied region. In this context, the writing of the article is taken as the main criterion and is of particular importance due to its relevance.*

***Keywords:*** *Library, bibliography, document flow, document management, information demand, international indexing*

## Giriş

Qlobal informasiya məkanında arxivləşdirmə və indeksləşdirmə bazaları, informasiyaların qiymətləndirilməsi prosesini, bütünlükdə bura daxil olan nəşrlərin biblioqrafik məlumatlarının təhlilini özündə ehtiva edir. Hal-hazırda elmi informasiya bazalarının çox əksəriyyəti indeksləşən məlumat bazalarıdır, və əgər şərti olaraq dünyada olan elmi məlumat bazalarını təsnif etmək istiyəriksə onu iki qrupa bölə bilərik (Ismayilov & Khalafova, 2024).

1) Indeksləşən məlumat bazaları

2) Arxivləşən məlumat bazaları

Hal-hazırda Bakı Dövlət Universiteti Azərbaycanda olan ali məktəb kitabxanaları və dünyanın bir çox nüfuzlu universitetlərinin kitabxanaları arxivlənən məlumat bazaları hazırlamaqdadırlar və Amerika Universitetlərinin məlumat bazaları da çox böyük informasiya tutumlu bazalardır. Ancaq o bazalarda ümumiləşmə prosesi baş vermir. İndeksləşən məlumat bazaları xüsusi xidmət sahəsidir. İndeksləşən məlumat bazası elmi təşkilatları, tədqiqatçıları, məqalələri, onlara olan istinadları indeksləşdirən, bu istinadların kəmiyyət göstəricilərini – ümumi istinadların sayını, h indeksini və s. təqdim edən elmi nəşrlərin referativ məlumatlar toplusudur. BDU-nun "İnformasiya və sənəd menecmenti" fakültəsində ərsəyə gətirilən elmi əsərlər dünyanın tanınmış beynəlxalq səviyyəli jurnallarında dərc edilərək bu sahənin inkişafına öz müsbət təsirini göstərməkdədir.

***Şəkil 1- İnformasiya və sənəd menecmenti fakültəsində mövcud olan ixtisas və ixtisaslaşmalar***



Yuxarıdakı sxemdən göründüyü kimi BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsində aşağıdakı ixtisas və ixtisaslaşmalar üzrə kadr hazırlığı həyata keçirilir:

* Kitabxanaçılıq və informasiya fəaliyyəti;
* Muzey, arxiv işi, abidələrin qorunması;
* Nəşriyyat işi və redaktəetmə;
* Kitabxanaşünaslıq;
* Kitabxana-informasiya texnologiyası;
* Biblioqrafiyaşünaslıq;
* Biblioqrafik ehtiyatların yaradılması və istifadəsi;
* Sənəd resursları və informasiya axtarış sistemləri.

Dünyanın ən tanınmış şöhrətli məlumat bazalarından hesab edilən Web Of Science, Scopus, Erich Plus, Ulakbium nüfuzlu məlumat bazalarındandır. Burada mövcud olan çox sayda məlumatlar içərisində Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komitəsinin xüsusi mötəbər hesab etdiyi 5 məlumat bazasını qeyd etmək lazımdır .

Web of Science – resenziyalaşdırılmış elmi ədəbiyyatın bir neçə biblioqrafik və referativ məlumat bazasını birləşdirən axtarış platformasıdır. Bu platforma 1960-cı illərdə elmmetriyanın qurucularından biri olan Eugene Garfield tərəfindən hazırlanmış elmi əsərlərə istinad indeksinə əsaslanır. Web of Science məlumat bazası resenziyadan keçmiş jurnalları, elmi kitabları, tədqiqat məqalələrini, kitab icmallarını, annotasiyaları, redaksiya məktublarını və digər ədəbiyyatı indeksləşdirir. 2023-ci ilin mart ayına olan məlumata görə, 1992-ci ildən bəri 80-dən çox ölkədə nəşr olunan 21,877 jurnal haqqında məlumat var (Ismayilov & Khalafova, 2024).

## 1. Məqalənin əsas hissəsi

Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsi üzrə fəaliyyət göstərən mütəxəssislərin, tədqiqatçıların yaradıcılığının obyektiv qiymətləndirilməsində ən müasir və innovativ üsul hesab edilən H indeksinin, yəni onlara verilən istinadların və əldə edilmiş məlumatların hansı formada yayılmasında, məlumat bazalarının əvəzsiz rolu vardır. Bu sahə üzrə fəaliyyət göstərən tədqiqatçılar daimi olaraq öz maraq dairələrində bu məlumat bazalarını saxlamalı və bu məlumat bazalarına daxil edilən nəşrlərin tələb və normalarına cavab verən səviyyədə tədqiqatlar aparmalı, nəşrlər hazırlamalıdır. Bu cür tədqiqatçı alimlərdən professor Xəlil İsmayılovun, dosent Sevda Xələfovanın, dosent Zahidə Rzayevanın, dosent Solmaz Sadıqovanın, dosent Sima İsmayılovanın,

dosent Pərviz Kaziminin, dosent Əlyusif Məmmədovun, Oruc Quliyevin, Vəfa Məmmədovanın və digər alimlərin adlarını qeyd edə bilərik. Bu sahə üzrə əsaslı şəkildə tədqiqatlar aparan alimlərdən biri də dosent Nadir İsmayılovdur. Qeyd edək ki, dosent N. İ. İsmayılov Azərbaycanda kitabxana-biblioqrafiya sahəsində sənəd axınının bibliometrik təhlili kompleks şəkildə araşdıran yeganə alimlərdəndir (Ismayilov & Khalafova, 2022). Onun bu adlı məqalələrində Azərbaycanda müasir dövrdə kitabxana-biblioqrafiya sahəsinə dair sənəd axınının yaranması və inkişafı məsələləri statistik baxımdan öz əksini tapmışdır. Burada qeyd olunan problem üzrə ilkin mülahizələr araşdırılmışdır. Alimin bu tip məqalələrində sahə üzrə sənəd axını konkret əlamətlərə görə qruplaşdırılmış və təhlil edilmiş həmçinin, sənəd axının tədqiqinə dair qiymətləndirmə indikatorlarının seçilməsi, tədqiqat məqsədinin konkretləşdirilməsi kompleks şəkildə təhlil olunmuşdur. Aparılan araşdırmalar zamanı məlum oldu ki, sənəd axınının tədqiqinin tətbiqində alınan nəticələrin interpretasiyası dəqiq aparılmalı, massivdə məhdudiyyətlər, istifadəçinin sorğusu, tətbiqi tədqiqatın məqsəd və vəzifələri nəzərə alınmalıdır (Ismayilov & Khalafova, 2023). Sənəd axınının tədqiqinə dair tətbiqi tədqiqatlar fondların komplektləşdirilməsinin keyfiyyətinin yüksəldilməsi, yaradılmış informasiya məhsulları və xidmətlərinə tələbatın xüsusiyyətlərinin yaxşılaşdırılması, informasiya müəssisələrinin işinin kordinasiyası və planlaşdırılması, mövcud müəssisənin intellektual və maddi resurslarının optimal istifadəsi, sənəd axınının işlənməsi zamanı texnoloji nəzarətin gücləndirilməsi, dünya informasiya bazarında dəqiq pozisiya almağın qeyri-mümkün olduğu müasir şəraitdə marketinq tədqiqatlarının aparılması ilə bağlı olan bir çox sistemdaxili məsələləri həll etməyə imkan verir (Ismayilov & Khalafova, 2023). Dosent N. İ. İsmayılovun yuxarıda qeyd edilən hər bir sahəyə dair fundamental elmi əsərlər ərsəyə gətirmişdir. Nümunə olaraq qeyd edə bilərik ki, bibliometriya sahəsinə dair fundamental elmi əsərlərindən olan "Azərbaycan Respublikasında kitabxana informasiya fəaliyyətində bibliometrik üsullardan istifadənin müasir vəziyyəti" adlı məqaləsində biblioqrafiyanın Azərbaycan modeli, bibliometrik tədqiqatların səviyyələri sistemli şəkildə təhlil edilmişdir (Ismayilov, Islamov, Yusifova, 2024; Ismayilov & Khalafova, 2024).

*Şəkil-2 Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elminin şaxələri*




"Kitabxana-informasiya resurslarının idarə olunmasında rəqəmsal marketinqin rolu" adlı məqalədə geniş şəkildə şərh olunan müasir mühitdə kitabxanaların informasiya resurslarının idarə olunmasında rəqəmsal marketinq sisteminin inkişaf dinamikası müasir dövrün kitabxanalarının əsas xarakteristikasını əks etdirir. Müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların elektron kataloq vasitəsilə tez bir zamanda unikal və təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmalıdırlar. Bu baxımdan Azərbaycanda kitabxana işinin inkişafında rəqəmsal marketinqin təşkili yeni mərhələyə başlanğıc verən mühüm sənədlər Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (20 aprel 2007) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın (6 oktyabr 2008) təsdiq edilməsi haqqındakı sərəncamlarının həyata keçirilməsi kitabxana quruculuğunun Azərbaycan dövləti tərəfindən prioritet sahə kimi müəyyənləşdirilməsini təsdiq edir. Məqalədə informasiya resursları anlayışı kitabxana kontekstində təhlil edilmiş, bu sahədə rəqəmsal marketinqin yeri və rolu sistemli şəkildə tədqiq edilmişdir. Tədqiqatçı alim qeyd edir ki, kitabxana marketinqi bu sahədə çalışan mütəxəssislərə elmi, sosial-iqtisadi və demokratik baxımdan səmərəli idarəetmə metodlarının formalaşmasına, kadrların yaradıcılığının və fəaliyyətinin daha səmərəli olmasına xidmət edir (Ismayilov & Khalafova, 2022). Məqalədə məsələyə ümumi şəkildə yanaşsaq aparılan araşdırmalar zamanı ümumi elm sahəsi üzrə Web of Science bazasında dərc edilən yerli tədqiqatçıların əsərlərinin statistik göstəricilərini qeyd edə bilərik.

***Dioqram-1***

***Həmçinin Web of Science bazasında dərc edilən yerli tədqiqatçıların əsərlərinin və istinadlarının statistik göstəricilərini də qeyd edə bilərik.***

(Müəlliflər tərəfindən tərtib edilmişdir).



***Dioqram-2***

***Yuxarıdakı diaqramdan göründüyü kimi Web of Science bazasında dərc edilən nəşrlərin maksimal sayı 2020-ci ilə, minimum sayı isə 2023-cü ilə (sentyabr ayına qədər) təsadüf edir. İstinadlara gəldikdə isə qeyd edə bilərik ki, 2019-cu ildən başlayaraq 2021 və 2022-ci illər arasında maksimum istinad sayları qeyd edilmişdir.***

(Mənbə:Müəlliflər tərəfindən tərtib edilmişdir).




Həmçinin onu da qeyd edək ki, tədqiqatçı alim beynəlxalq indeksləşdirilmiş məlumat bazalarına daxil olan jurnallarda tibb elminə dair də fundamental elmi əsərlər dərc etdirmişdir. Burada tibb elminin müasir aspektləri kompleks şəkildə şərh edilmişdir (İsmayılov, Pirəliyeva & Şadlinski, 2022).

***Dioqram-3***
(Müəlliflər tərəfindən tərtib edilmişdir).




Yuxarıdakı dioqramda Türkiyə, Ukrayna və digər ölkələrin nəşriyyatları tərəfindən ərsəyə gətirilən elmi jurnallarda çap edilən dosent N. İ. İsmayılovun əsərlərinə edilən istinadların statistikası qeyd edilmişdir. Türkiyede dərc edilən Web of Science bazasına daxil olan "Belleten", Erich Plus bazasına daxil olan ''Akademik Tarih ve Düşünce Dergisi'' jurnallarını qeyd edə bilərik (Ismayilov, 2022). Müasir dövrdə aktual olan məsələlərdən biri də turizm olduğu üçün alim bu sahəyə dair informasiya təminatının araşdırılmasına da xüsusi diqqət göstərmişdir. Bu qəbildən olan məqalədə alim işğaldan azad edilmiş ərazilərimizdə turizm potensialının inkişafının mühüm rol oynadığının və gələcəkdə bu prizmadan işlərin görülməsini mühüm faktor kimi qeyd etmişdir (Ismayilov & Gasimli, 2022; Ismayilov, Mahammadli, Gasimli, 2023; Ismayilov & Khalafova, 2024; Ismayilov, & Khalafova, 2024). Həmçinin alim elmi ədəbiyyatlarda təzkirələr haqqında olan ümumi anlayışları kompleks şəkildə şərh etmiş və onun elmi tərəfdən əsas anlamını konkret sitatlar əsasında göstərmişdir (Ismayilov & Aliyeva, 2023). Tədqiqatçının iqtisadiyyat üzrə sənəd-informasiya resurslarının tipologiyası" adlı məqaləsində iqtisadiyyat üzrə sənəd axınının tiplərə bölünməsində bir sıra əlamətlərin (məzmun, məqsəd təyinatı, oxucu təyinatı, sənədin formaları və ya növləri və s.) məzmununa uyğun olaraq həyata keçirilməsinin vacibliyindən bəhs olunur. Eyni zamanda qeyd olunur ki, məqsəd təyinatında iqtisadiyyat üzrə sənəd axının təbəqələşməsinə xüsusi diqqət verilməlidir. Bu zaman iki prosesi nəzərdə tutmaq lazımdır: 1) sənədlərin istehsal prosesi; 2) sənədlərin istifadə olunması prosesi.

Məqalədə sənəd axınının ayrılmasında iqtisadi biblioqrafiyanın formalaşmasında başlanğıc sayılan əsas kateqoriyalardan biri olan iqtisadi fəaliyyətin tətbiq edilməsidir. Sənədlərin istehsalı prosesi iqtisadi fəaliyyətin iki sferasında: iqtisadiyyat elmi və iqtisadi təcrübədə həyata keçirilir.

Bu zaman iqtisadiyyat elmi sferasının tələbatını nəzərə alaraq iqtisadi ədəbiyyatın bu tiplərini ayırmaq olar: elmi-tədqiqat, elmi-kütləvi, tədris, soraq. Məqalədə bu qeyd olunan iqtisadi ədəbiyyatın tipləri ayrı-ayrılıqda tədqiqata cəlb olunmuşdur (Ismayilov, Mahammadli & Khudiyeva, 2022; Ismayilov & Khalafova, 2024; Beck, 2008).

***Dioqram-4***




Elektron kitabxana-informasiya resurslarının yaradılması və formalaşdırılması haqqında da xarici təcrübələrə əsaslanaraq müəllif tərəfindən kompleks şəkildə araşdırılmalar aparılmışdır. Qeyd edək ki, bu sahədə mövcud olan çatışmazlıqlar göstərilmiş və onların gələcək həll yolları qeyd edilmişdir (Ismayilov, Mahammadli & Khudiyeva, 2022; Egghe, 2006). Tədqiqatçı bu qəbildən olan elmi məqalələrində qeyd edir ki, qlobal rəqəmsallaşma şəraitində mütəxəssisin uğurlu peşəkar fəaliyyəti üçün ən mühüm şərtlərdən biri müasir rəqəmsal texnologiyaların nəzəri və tətbiqi bacarıqlarına malik olmasıdır. Rəqəmsal bacarıqlar təkcə rəqəmsal texnologiyaların nəzəri biliklərini əhatə etmir, həm də onların uğurlu tətbiqinə zəmanət verir. Bu biliklərdən səmərəli istifadə üçün xüsusi bacarıqlar - rəqəmsal mühiti dərk etmək, fərdlərin tanımadığı mühitə sürətlə uyğunlaşması, fəaliyyətin bütün sahələrində xüsusi texnologiya, aparat və proqram təminatından səmərəli istifadə edə bilmək və rəqəmsal mühiti başa düşmək və s. tələb olunur. Rəqəmsal savadlılıq rəqəmsal dünyada sağ qalmaq üçün lazım olan şəxsi, texniki və intellektual

bacarıqları əhatə edir. Rəqəmsal bilik və bacarıqlar hər bir fərdin peşəkar fəaliyyətinin aspektlərini, eləcə də konkret iş mövqeyində və konkret vaxtda fəaliyyət göstərmək bacarığını təmsil etməlidir (Ismayilov & Khalafova, 2022; Garfield, 1955).

## Nəticə

Məqalənin elmi yeniliyi aşağıdakı amillərlə ifadə edə bilər:

- Məlumat bazalarının formaları, onlara verilən tələblərin meydana çıxarılması;
- Qlobal informasiya məkanında kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə mövcud olan məlumat bazalarına daxil olan nəşrlərin qruplaşdırılması;
- Kitabxanaşünas mütəxəssislərin bu məlumat bazalarında elmi aktivliyinin müəyyən edilməsi;
- Cəmiyyətdə baş verən tədqiqat proseslərinə və informasiyanın qiymətləndirilməsinə uyğun olaraq məlumat bazalarında informasiya texnologiyalarının tətbiqi əsasında elmi tədqiqatların dünya informasiya məkanına inteqrasiyasını əks etdirmək;
- İnformasiyanın qiymətləndirilməsi üzrə elmi tədqiqat fəaliyyətinin inkişaf dinamikasının ümumi mənzərəsini yaratmaq.

Məqalədə aşağıdakı təklif və tövsiyələri vermək məqsədəuyğundur:

1. İnformasiya və sənəd menecmenti sahəsi üzrə mövcud olan beynəlxalq səviyyəli jurnalların beynəlxalq indekləşdirmə və arxivləşdirmə bazalarının təhlili;

2. Müxtəlif metodlar vasitəsilə kitabxanaşünas alimlərin beynəlxalq məlumat bazalarındakı elmi aktivliyinin davamlı araşdırılması;

3. İnformasiya və sənəd menecmenti sahəsi üzrə mövcud olan beynəlxalq səviyyəli jurnalların nüfuzlu məlumat bazalarına əlyetərliyin təmin edilməsi;

4. İnformasiya və sənəd menecmenti sahəsi üzrə nəşr olunan yerli elmi jurnalların nüfuzlu məlumat bazalarında indeksləşdirilməsi üçün vacib olan tələblərin müəyyənləşdirilməsi və gələcəkdə beynəlxalq arenaya çıxarılması;

5.Azərbaycanda İnformasiya və sənəd menecmenti sahəsi üzrə elmi jurnalları indeksləşdirən və arxivləşdirən məlumat bazalarının yaradılması.

## Ədəbiyyat

Beck S. (2008*). Practical research methods for librarians and information professionals*. Neal-Schuman Publ.

Egghe, L. (2006). Theory and practise of the g-index. *Scientometrics, 69* (1), 131–152.

Garfield, E. (1955). Citation Indexes for Science: A New Dimension in Documentation through Association of Ideas. Science. *American Association for the Advancement of Science*, 122, 108–111.

Ismayilov, N. I. (2022). Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice). *Scientific and Theoretical Almanac Grani*, *1* (26), 38-43.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection).*Technium Social Sciences Journal*, *33*, (1), 628-637.

Ismayilov, N. I. & Khalafova, S. A. (2022). Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience). *GRANI Journal*, *25* (2), 22-28.

Ismayilov N. I. & Khalafova S. A. (2022). The role of digital marketing in the management of library information resources. *академічний огляд, 2* (57), 194-202.

Ismayilov, N. I. Mahammadli, D. & Khudiyeva, V. (2022). Methods and Means of Information Search in the Digital Environment. *GRANI Journal*, *25* (5), 31-34.

Ismayilov, N. I., Gasimli, H. (2022). The main activities of the Republic's Tourism Information Centers. *GRANI Journal*, *25* (6), 16-22.

İsmayılov N. İ., Pirəliyeva Y.U. & Şadlinski E. A. (2022). Tibb elminin informasiya təminatının müasir aspektlər. *Azərbaycan Tibb jurnalı,* 3, 108-111.

Ismayilov, N. I. & Khalafova S. A (2023). The Modern Situation of Using Bibliometric Methods in Library-Information Activity in the Republic of Azerbaijan. *GRANI Journal*, *26* (2), 106-110.

Ismayilov, N. I., Mahammadli, D. & Gasimli, H. (2023). Organization, Development and Current Situation of the Document Flow on Tourism in the Regions (Based on the Example of the Shaki-Zagatala Economic Region. *GRANI Journal*, *26* (2), 122-127.

Ismayilov, N. I. & Aliyeva, G. (2023).Creation and Formation of Document Flow in the Field of Library-Bibliography (on the Basis of Tazkiras). *GRANI Journal*, *26* (3), 165-170.

Ismayilov, N. İ., Islamov, I. & Yusifova, G. (2024). Information resources from philosophy in Azerbaijan. *Scientific and theoretical almanac Grani*, *27* (1), 86-90. https://doi.org/10.15421/172411

Ismayilov, N. İ. & Khalafova, S. A. (2024). Stages of development of documentary resources from language studies in Azerbaijan. *Scientific and theoretical almanac Grani, 27* (2), 70-75. https://doi.org/10.15421/172433

Ismayilov, N. İ. & Khalafova, S. A. (2024). Traditional and electronic information resources of the National Archives Administration of the Azerbaijan Republic. *Scientific and theoretical almanac Grani*, *27* (3), 44-48. https://doi.org/10.15421/172448